Mama

1) Dölün doğum yollarını keçərkən etmiş olduğu hərəkətlərin cəmi necə adlanır?

A) Başın konfiqurasiyası
B) Doğuşun biomexanizmi
C) Retraksiya
D) Kontraksiya
E) Asinklitizm

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 96; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 127

2) Normal doğuşda göbək ciyəsi nə vaxt kəsilir?

A) Göbək ciyəsində pulsasiya kəsildikdən sonra
B) Cift ayrıldıqdan sonra
C) Uşaq doğulan kimi
D) 20 dəqiqə sonra
E) 10 dəqiqə sonra

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 100; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 134

3) Sağlam yeni doğulmuşun vəziyyəti 1dəqiqə sonra Apqar şkalası ilə neçə balla qiymətləndirilməlidir?

A) 8 - 10 balla
B) 4 - 5 balla
C) 5 - 6 balla
D) 4 baldan aşağı
E) 6 balla

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 165; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 355

4) Asfiksiyada doğulmuş uşağa ilk yardım nədən başlanılır?

A) Gözlərin blenoreyaya qarşı profilaktikası aparılmalı
B) Göbək ciyəsinə qlükoza – vitamin vurulmalı
C) Refleksləri yoxlanılmalı

D) Süni tənəffüs verilməli
E) Tənəffüs yollarından selik xaric edilməli

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 100; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 134

5) Nə zaman dölün bətndaxili profilaktikasının aparılması effektsiz sayılır ?

A) Sancı zəifliyi olarsa
B) Ananın arterial təzyiqi aşağı olarsa
C) Yarımçıq doğuşlarda
D) Anada qanazlığı varsa
E) Döldə hipoksiya təsdiqlənirsə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 354; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 177

6) İlk psixoprofilaktika harada və kimlərlə aparılmalıdır?

A) Qadın məsləhətxanasında bütün hamilə qadınlarla
B) Patologiya şöbəsində olan qadınlarla
C) Risk qrupuna daxil olan qadınlarla
D) Doğuş vaxtı ağrıları aradan götürmək üçün
E) Doğuş vaxtı ölmüş hamilə qadınlarla

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 109

7) Yeni doğulmuş neçə saatdan bir əmizdirilməlidir?

A) Yeni doğulmuş nə qədər tələb edərsə
B) Gecə 6 saat istirahət verməklə
C) Hər bələndikdən sonra
D) Hər 3 saatdan bir
E) 6 saatdan sonra

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 350; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 168

8) Sağlam zahı qadınlarda uşaqlıq nə vaxt qasıq nahiyyəsi üzərində əllənmir?

A) 3 gündən sonra
B) 1 aydan sonra

C) 6 gündən sonra
D) 11 - ci gün
E) 1 həftədən sonra

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 120; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 157

9) Mama aşağıdakı hallardan hansını etməməlidir?

A) Perineotomiya
B) Sidiyi kateterlə boşaltmaq
C) Uşaqlıq boşluğunu qaşımaq
D) Venadaxili inyeksiya etmək
E) Doğuşu idarə etmək

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 100-138; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 134

10) Hansı hallarda həkim olmadığı şəraitdə mama qadına təcili yardım göstərə bilər?

A) Keysəriyyə kəsiyini aparmaq
B) Dekapitasiya əməliyyatı etmək
C) Mamalıq maşasını qoymaq
D) Süni abort etmək
E) Doğuşu sağrı gəlişində Sovyanov üsulu ilə idarə etmək

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 217

11) Zahılıq şöbəsində işləyən mamanın əsas işi nədən ibarətdir?

A) Zahının ümumi vəziyyətinə nəzarət və həkimin təyinatını yerinə yetirmək
B) Analizlər üçün arayışlar yazmaq
C) Lazımi tələbi ilə əlaqədar palataya daxil olmaq
D) Təkcə həkimin təyinatını yerinə yetirmək
E) Otağın havasını dəyişmək

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 20-120; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 4-9

12) İki yumurta əkizləri üçün nə xarakterik deyil?

A) İki amnion, iki xorion qişası var

B) Müxtəlif cinsli oia bilər
C) Bir ciftə malikdir
D) Ciftlər yanaşı yerləşir
E) Müxtəlif ciftə malikdir

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 115

13) Çox döllü hamiləlik üçün əsas nə xarakterikdir?

A) Vaxtı keçmiş doğuş
B) İri dölün inkişafı
C) Yarımçıq doğuşlar
D) Güclü doğum fəaliyyəti
E) Bir amnion qişanın olması

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 115

14) Çoxdöllü hamiləlikdə hansı hala az rast gəlinir?

A) Qanazlığı
B) Uşaqlığın pis yığılması
C) Dölyanı mayenin vaxtından qabaq axması
D) Vaxtı ötmüş hamiləliyə
E) Preeklampsiya

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 115

15) Çoxdöllü hamilə qadın stasionara nə vaxt göndərilməlidir?

A) Doğuşun II dövründə
B) Doğuşa iki həftə qalmış
C) 40 həftədə
D) Doğum sancıları başlayandan sonra
E) Dölyanı maye açıldıqdan sonra

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 115

16) Çoxdöllü hamiləlikdə I döl doğulduqdan sonra ilk növbədə nə etməli?

A) Daxili müayinə aparmalı
B) II dölün vəziyyətini, gələcək hissəni, ürək döyünməsini və sancıların xarakterini təyin etmək
C) Döl qişasını süni açmalı

D) Vena daxilinə sistem qoşmalı
E) Uşaqlığı yığan preparatlardan istifadə etməli

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 115

17) Təmiz sağrı gəlişində doğuş hansı üsulla idarə edilir?

A) Keysəriyyə əməliyyatı ilə
B) Brekton – Qiks üsulu ilə
C) Döl qişasının süni açmalıı
D) Sovyanov üsulu ilə
E) Moriso – Levre üsulu ilə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 217

18) Sovyanov üsuli ilə doğuşun idarə edilməsində məqsəd nədən ibarətdir?

A) Doğuşu stimulə etmək
B) Dölün başının vaxtından qabaq açılmasının qarşısını almaq
C) Dölün vəziyyətini düzəltmək
D) Qanaxmanın profilaktikası
E) Göbək ciyəsinin düşməsinin qarşısını almaq

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 217

19) Çanaq gəlişində baş hansı ölçü ilə xaric olur?

A) Kiçik çəp ölçü ilə
B) Düz ölçü ilə
C) Böyük çəp ölçü ilə
D) Şaquli ölçü
E) Orta çəp ölçü ilə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 217

20) Sağrı və ayaq gəlişlərində açılmış baş hansı üsulla azad edilir?

A) Moriso - Levro
B) Uilta - İvanov
C) Kyustner - Cukalov
D) Arxangel
E) Krede - Lazereviç

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007səh217

21) Göbək ciyəsinin düşməsi hansı halda mümkündür?

A) Təmiz sağrı gəlişində
B) Qarışıq sağrı gəlişində
C) Dölün köndələn vəziyyətində dölyani maye axarsa
D) Su kisəsi tam açıldıqda
E) Baş gəlişində

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 225

22) Hamiləliyin erkən toksikozu zamanı hansı əlamət qeyd oluna bilər ?

A) Preeklampsiya
B) Çəkinin artması
C) Ödem
D) Çəkinin azalması
E) Eklampsiya

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 135

23) Həddindən artıq qusmada hamilədə nə baş verir?

A) Bradikardiya
B) Taxikardiya
C) Hipertoniya
D) Anemiya
E) Aritmiya

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 135

24) Hamiləliyin nadir forma ağırlaşmasına nə aiddir?

A) Tüpürcək ifrazının çoxalması
B) Ürək bulanma
C) Ödemin olması
D) Həddindən artıq qusma
E) Qaraciyərin kəskin sarı atrofiyası

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 139

25) Qusma əleyhinə hansı dərman istifadə edilir?

A) Dimedrol
B) Serukal
C) Sefamezin
D) Noşpa
E) Droperidol

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 135

26) Orta dərəcəli preeklampsiya üçün xarakterik əlamət hansıdır?

A) Leykosituriya
B) Sidikdə qanın olması
C) Piuriya
D) Proteinuriya
E) Bakteriuriya

Ədəbiyyat: Ağır preeklampsiya və eklampsiyanın reanimasiyası üzrə klinik protokol.Bakı-2009.

27) Sidikdə zülalı təyin etmək üçün nədən istifadə edilir?

A) Pervomur
B) Xlorheksidin
C) Sulfasil turşusu
D) Xloramin
E) 96 % spirt

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 67; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 88

28) Ağır preeklampsiyanın bazis mıalicəsində nədən istifadə edilir?

A) Noşpa
B) Maqnezium - sulfat (vena daxili)
C) Kofein
D) Vitamin B12, Vitamin C
E) Sigetin

Ədəbiyyat: Ağır preeklampsiya və eklampsiyanın reanimasiyası üzrə klinik protokol.Bakı-2009.

29) Hamiləliyin gecikmiş ağırlaşmalarının bütün formalarının ümumi cəhətləri hansılardır?
1. Hamiləliklə əlaqədardır
2. Mərkəzi sinir sistemində dəyişiklik müşahidə olunur
3. Böyrəklərin funksiysı zəifləyir
4. Arteral təzyiq artır
5. Sadalananların hamısı

A) 1, 3
B) 2, 5
C) 3, 4
D) 4, 5
E) 5

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 149

30) Maqnezium- sulfat necə vurulur?

A) Vena daxilinə droperidolla
B) Vena daxilinə fizioloji məhlulla
C) Vena daxilinə qlükoza ilə
D) Dəri altına nazik iynə ilə
E) Əzələ daxilinə antibiotiklə

Ədəbiyyat: Ağır preeklampsiya və eklampsiyanın reanimasiyası üzrə klinik protokol.Bakı-2009.

31) Furasemidin sinonimi hansıdır?

A) Lidokain
B) Trorurasil
C) Laziks
D) Furasillin
E) Furadonin

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 139

32) Fəsadlaşmış mamalıq anamnezi olan hamilə qadınlar harada doğmalıdırlar?

A) Ginekologiya şöbəsində
B) Feldşer - mama məntəqəsində
C) Evlərdə
D) Xəstəxananın endokrin şöbəsində

E) İxtisaslaşmış doğum evlərində

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 20; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 4

33) Şəkərli diabeti olan anadan doğulan uşaqda ilk növbədə nəyi yoxlamaq lazımdır?

A) Ürək və tənəffüs sisteminin vəziyyətini
B) Qanda şəkərin miqdarını
C) Dərisinin rəngini
D) Qan qrupunu və Rh
E) Sidiyin miqdarını

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 16

34) Rh (–) faktoru olan qadının təkrar doğuşlarında yeni doğulmuş nə vaxt döşə verilir?

A) Travma ilə doğulduqda
B) Uşağın Rh statusundan asılı olmayaraq
C) Hemolitik sarılıq xəstəliyinə risk olduqda
D) Yeni doğulmuş tez uşaq xəstəxanasına göndərilir
E) Doğuş zalında döşə qoyulur

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 302

35) Dölün bətndaxili anomaliyalarına əsasən hansı xəstəlikdə rast gəlinir?

A) Kəskin rinit
B) Difteriya
C) Kəskin bronxit
D) Suçiçəyi
E) Məxmərək

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 280-94

36) Beçəxorda uşaqlığın ölçüsü necə olur?

A) Hamiləliyin müddətindən böyük olur
B) Hamiləliyin müddətindən kiçik olur
C) Hamiləliyin müddətinə uyğun gəlir
D) Kistaya oxşayır

E) Fibromaya oxşayır

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 291

37) Doğuş zamanı baş verən qıcolma tutmaları aşağıdakıların hansında baş verir?

A) Ödemdə
B) Preeklampsiyada
C) Eklampsiyada
D) Qaraciyərin sarı distrofiyasında
E) Osteomalyasiyada

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 139

38) Hipoproteinemiyanı aradan götürmək üçün nədən istifadə olunur?

A) Albumin
B) Apilak
C) Adelfan
D) Ampioks
E) Adrenalin

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 139

39) Beçəxordan müalicə almış qadın harada dispanser müşahidəsində olmalıdır?

A) Qadın məsləhətxanasında
B) Onkologiyada
C) Xəstəxanada
D) Poliklinikada
E) Urologiyada

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 291

40) Dölyanı mayenin az və çox olmasının səbəbi nə ilə əlaqədardır?

A) Sidik kisəsindən
B) Mədədən
C) Endometriumdan
D) Miometriumdan
E) Amnion qişanın epitelindən asılıdır

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 41; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 54

41) Doğuş vaxtı döl qişası nə vaxt süni açılır?

A) Uşaqlıq boynu 2 sm açıq olanda
B) Uşaqlıq boynu tam açıq olan halda
C) Güc vaxtı
D) Sancı vaxtı
E) Uşaqlıq boynu 6 sm açıq olanda

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 100-317; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 134

42) Spina – bifida nə deməkdir?

A) Onurğa sütununun yırtığı
B) Yuxarı damağın anomaliyası
C) Qasıq yırtığı
D) Anadangəlmə çıxıq
E) Döldə anomaliya

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 280-294

43) Bətndaxilində dölün inkişafı üçün təhlükə yaradan vəziyyətə nə səbəb ola bilər?

A) Dölyanı mayenin yaşıl rəngdə olması
B) Ananın hemoqlobini 100 q / l
C) Azacıq ifrazatın olması
D) Dölün ürək vurğuları 1dəqiqədə - 136 vurğudursa
E) Dölyani mayenin miqdarının az və şəffaf olması

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 354; Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 177

44) Düşük təhlükəsi üçün xarakterik əlamət nə ola bilər?

A) Hamiləliyin müddəti axırıncı aybaşıya uyğun gəlmir
B) Qarının aşağı hissəsində ağrıların olması
C) Sancı şəkilli ağrılar
D) Uşaqlıq boynunun qısalması
E) Qanaxma

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 168

45) Vaxtı ötmüş hamiləlikdə döldə nə baş verə bilər?

A) Dölün əmgək və oxabənzər tikişinin enli olması
B) Əl və ayaqların dərisi masserasiyalaşır
C) Dölün böyük əmgəyinin açıq olması
D) Döldə hidrosefaliya
E) Dölün çəkisinin 4200 qr olması

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 180

46) Vaxtı keçmiş hamiləlik əsasən necə sona çatdırılır?

A) Doğuş adi qayda ilə baş verir
B) Stimulyasiya effektsiz olarsa keysəriyyə kəsiyilə
C) Yarımçıq doğuşla
D) Dölyanı mayenin vaxtından qabaq axması
E) Döl başının açılması baş verir

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 180-343

47) Dölyanı maye vaxtından qabaq axarsa doğuşu nə vaxt stimulə etmək olar?

A) 2 saatdan sonra
B) 1 gün sonra
C) 12 saatdan sonra
D) Hamiləliyin müddətindən asılıdır
E) 30 dəqiqədən sonra

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 100-202

48) Mama doğuşu stimulə etmək üçün fizioloji məhlulda nəyi həll etməlidir?

A) 10 ml oksitosin
B) 1 ml progesteron
C) 1 ml (5 TV) oksitosin
D) 5 ml (1 TV) oksitosin
E) 1 ml metilerqometrin

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 100-202

49) Doğuşu stimulyasiya etmək üçün hansı dərmandan istifadə edilir?

A) Eufilin
B) Etimirol
C) Esensual
D) Erqatol
E) Enzoprost

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 100-202

50) Klinik dar çanaq diaqnozu nə vaxt qoyulur?

A) Hamiləliyin axırında
B) Anatomik dar çanağa görə
C) Doğuşun normal keçməsində heç bir maneçilik olmur
D) Qadın məsləhətxanasında
E) Yalnız doğuş vaxtı

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007səh209

51) Çanağın daralma dərəcəsi nəyə əsaslanır?

A) Çanaq çıxacağına görə
B) Çanağın girəcəyinin köndələn ölçüsünə görə
C) Diaqonal konyuqataya
D) Həqiqi konyuqataya
E) Xarici konyuqataya

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 209

52) II dərəcəli dar çanağın həqiqi konyuqatası neçə sm - dir?

A) 11 – 9 sm
B) 5 – 8 sm
C) 13 sm
D) 7 – 6 sm
E) 9 – 7 sm

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 209

53) III və IV dərəcəli dar çanaqlarda doğuş necə qurtarır?

A) Keysəriyyə kəsiyi
B) Başın perforasiyası
C) Vakuum – ekstraksiya
D) Normal doğuşla
E) Mamalıq maşası

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 209

54) Baş nə vaxt şaquli ölçü ilə xaric olur?

A) Ənsə gəlişi arxa görkəmdə
B) Çanaq gəlişində
C) Ön – təpə gəlişində
D) Üz gəlişində
E) Alın gəlişində

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 228

55) Üz gəlişində dayaq nöqtə hansıdır?

A) Dilaltı sümük
B) Çənəaltı
C) Ənsəaltı çuxur
D) Üst çənə
E) Burun kökü

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 228

56) Üz gəlişində doğum yollarından ilk görünən nə olur?

A) Ağız
B) Alın
C) Ənsə
D) Böyük əmgək
E) Burun

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 228

57) Xarici qanaxmaya nə səbəb ola bilər?

A) Normal yerləşmiş ciftin vaxtından qabaq ayrılması
B) Təmiz və qarışıq sağrı gəlişləri
C) Doğum fəaliyyətinin zəifləməsi

D) Hər doğuşdan sonra
E) Diskoordinasiyalı doğum fəaliyyəti

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 234

58) Uşaqlığın cırılmasına əsas səbəb nə ola bilər?

A) Güclü doğum fəaliyyəti
B) Uşaqlığın üzərində çapıq toxuma
C) İri döl
D) Klinik uyğunsuzluq
E) Zəif doğum fəaliyyəti

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 247

59) Vasten əlaməti nəyi göstərir?

A) Hamiləliyin sayını
B) Uşaqlığın tam cırılmasını
C) Patoloji cift gəlişlərini
D) Klinik uyğunsuzluğu
E) Uşaqlığın natamam cırılmasını

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 209

60) Uşaqlıq nə vaxt qum saatı formasını alır?

A) Uşaqlığın cırılma təhlükəsi olduqda
B) Güc vermələr vaxtı
C) Uşaqlıq tam cırıldıqda
D) Normal sancılar vaxtı
E) Sancı arası fasilədə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 248

61) Çoxdöllü hamiləlikdə I döl doğulduqdan sonra əsas hansı patologiya baş verə bilər?

A) Uşaqlığın boynunun spazmı
B) Uşaqlığın pis yığılması
C) Uşaqlığın tam cırılma təhlükəsi
D) Normal ciftin vaxtından qabaq ayrılma təhlükəsi
E) Uşaqlığın natamam cırılma təhlükəsi

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 115

62) Uşaqlığın tam cırılmasında nə baş verir?

A) Sancılar tam kəsilir
B) Sancılar tez–tez tutur
C) Sancılar anormal olur
D) Döldə hipoksiya baş verir
E) Döl diri olur

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 247

63) Uşaqlıq boynu 2 sm – dən çox cırılarsa neçənci dərəcə sayılır?

A) 1 – ci
B) 2 – ci
C) 3 – cü
D) 4 – cü
E) 5 – ci

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 246

64) Uşaqlıq boynunun cırığı hansı sapla tikilir?

A) Ketqutla
B) Adi sapla
C) Lavsanla
D) İpəklə
E) Kapronla

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 246

65) Aralığın II dərəcəli cırığında tikişlər nə vaxt sökülür?

A) 7 – ci gün
B) 5 – ci gün
C) 6 – cı gün
D) 3 – cü gün
E) 2 – ci gün

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 246

66) Perineotomiya nə vaxt icra edilir?

A) Sancı arası fasilədə
B) Güc vaxtı
C) Dölün başı çanaq çıxacağında olanda
D) Güc arası fasilədə
E) Dölün başı çanaq boşluğunda olarkən

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 319

67) Keysəriyyə əməliyyatından 30 dəqiqə qabaq hamiləyə nə vurulur?

A) Atropin və dimedrol
B) Metilerqometrin
C) Pitiutrin
D) Prozerin
E) Oksitosin

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 343

68) Keysəriyyə əməliyyatından sonra tikiş nə vaxt sökülür?

A) 4 - cü gündən tez
B) 5 - ci gün sökülür
C) Sökülmür
D) 3 - cü gün
E) 7 - ci gün

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 343

69) Ciftin uşaqlıq divarına həqiqi bitişməsi olarsa nə etmək lazımdır?

A) Uşaqlıq boşluğunun əllə yoxlanması
B) Uşaqlığın ekstirpasiyası
C) Cift sahəsinin xüsusi məhlulla işlənməsi
D) Uşaqlıq divarından ciftin əllə ayrılması
E) Uşaqlıq boşluğunun qaşınması

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 237

70) Uşaqlıq boşluğu əllə yoxlandıqdan sonra nə təyin edirlər?

A) Qeyri – narkotik ağrıkəsicilər
B) Sidikqovucu dərmanlar
C) Antibiotik və uşaqlığı yığan dərmanlar
D) Hipotenziv dərmanlar
E) Narkotik ağrıkəsicilər

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 332

71) Hipotonik qanaxma zamanı ilk növbədə nə etmək lazımdır?

A) Uşaqlığa ağrıkəsici vurmaq
B) Uşaqlığı tamponada etmək
C) Uşaqlığın yığılmasını bərpa etmək
D) Uşaqlıq boşluğunu qaşımaq
E) Uşaqlıq arteriyalarını bağlamaq

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 256

72) İrinli - mastitdə zahı qadınların müalicəsi hansı şöbədə aparılsa yaxşıdır?

A) Doğum şöbəsində
B) Qəbul şöbəsində
C) İntensiv reanimasiya şöbəsində
D) Cərrahiyyə şöbəsində
E) Ginekoloji şöbədə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 261

73) Qadının öz arzusu ilə hamiləliyin pozulması neçə həftəyə kimi mümkündür?

A) 12 həftə
B) 10 həftə
C) 20 həftə
D) 13 - 14 həftə
E) 22 həftə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 308

74) Tibbi göstəriş əsasında hamiləliyin pozulması neçənci həftədə mümkündür?

A) Hamiləliyin 24 - cü həftədə
B) Hamiləliyin 28 - ci həftədə
C) Hamiləliyin 12 - ci həftədə

D) Hamiləliyin bütün həftələrində
E) Hamiləliyin 16 - cı həftədə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 308-313

75) Doğum yollarını doğuşa hazırlayan hala nə aid deyil?

A) Uşaqlıq boynunun barmaqla genəldilməsi
B) Perineotomiya
C) Epiziotomiya
D) Kraniotomiya
E) Amniotomiya

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 338

76) Kənari və yan cift gəlişlərində qanaxma olarsa nə etməli?

A) Nəzarət etmək
B) Amniotomiya
C) Uşaqlıq yolunun tamponadası
D) Dölün xarici üsulla döndərilməsi
E) Mamalıq maşası

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 232

77) Uşaqlıq yolunun selikli qişasının sianozu nəyi göstərir?

A) Qorxulu düşük təhlükəsini
B) Hamiləliyi
C) Kolpiti
D) Aybaşı siklinin başlanmasını
E) İnkişafdan qalmış hamiləliyi

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 67

78) Son nə deməkdir?

A) Cift və göbək ciyəsi
B) Amnion, xorion və göbək ciyəsi
C) Cift və qişalar
D) Cift, göbək ciyəsi və qişalar
E) Amnion, xorion

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 93

79) Daxili müayinə neçə saatdan bir təkrarlana bilər?

A) 10 saat
B) 4saat
C) 3 saat
D) 5 saat
E) 2 saat

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 73

80) Uşaqlıqdan kənar hamiləlik vaxtı nə etmək lazımdır?

A) Cərrahi müalicə
B) Uşaqlıq boşluğunun qaşınması
C) Konservativ müalicə
D) Kurort müalicəsi
E) Fizioterapevtik mülalicə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 186

81) Erkən zahılıq dövrünün davamiyyəti nə qədərdir?

A) 40 gün
B) 5 – 6 gün
C) 2 saat
D) 12 saat
E) 1 gün

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 120

82) Perineotomiya kimlərə edilir?

A) İlk doğan qadınlara
B) Aralığı hündür olan qadınlara
C) Aralığı alçaq olan qadınlara
D) Çox doğmuş qadınlara
E) Köhnə çapıq toxuma olduqda

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 317

83) Dəri- baş maşası nə vaxt qoyulur?

A) Ölü yetişmiş döldə
B) Diri yarımçıq döldə
C) Çox döllü hamiləlikdə
D) Siam ekizləri olduqda
E) Ölü yarımçıq döldə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 319

84) Ciftin əllə ayrılması nə vaxt ola bilər?

A) Ciftin həqiqi bitişməsi
B) Ciftin patologiyasında
C) Uşaqlıq boynunun spazmında
D) Ciftin hissəvi bitişməsi
E) Ciftin hissəvi ayrılmasında

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 237

85) Doğuşdan sonra infeksion xarakterli olmayan xəstəlik hansıdır?

A) Hava emboliyası
B) Septikopiemiya
C) Endometrit
D) Septisemiya
E) Parametrit

Ədəbiyyat: В.И. Бодяжина. Акушерство. «Медицина», Москва, 1985 səh. 301

86) Doğuşdan sonrakı septiki xəstəliklərin I etapına nə aiddir?

A) Mastit
B) Endometrit
C) Salpinqooforit
D) Tromboflebit
E) Septiki şok

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 261

87) Köndələn vəziyyət I mövqe?

A) Baş sol qasıq çuxurundadır

B) Baş soldadır
C) Baş çanaq boşluğundadır
D) Unudulmuş köndələn vəziyyət
E) Baş sağdadır

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 225

88) Natamam abort dedikdə nə başa düşülür?

A) Döl yumurtası qalıqlarının uşaqlıqda qalması
B) Daxili qanaxma
C) Aşağı seqment nahiyəsində ağrı
D) Qanlı ifrazatın olması
E) Hərəkətdə olan abort

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 168

89) Uşaqlığın hansı anomaliyalarında sonsuzluğa rast gəlinir?

A) Yəhərvari uşaqlıq
B) Uşaqlığın həddən artıq kiçik olması
C) Qoşa uşaqlıq və uşaqlıq yolu
D) Bir buynuzlu uşaqlıq
E) Uşaqlığın fibromioması

Ədəbiyyat: В.И. Бодяжина. Акушерство. «Медицина», Москва, 1985 səh. 216

90) Hansı yanaşı xəstəliklərdə ən çox hamiləliyin gecikmiş ağırlaşmalarına rast gəlinir?

A) Anemiya
B) Qan xəstəlikləri
C) Sidik yollarının xəstəlikləri
D) Qrip
E) Süzənək

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007səh157-159

91) Ciftin hansı anomaliyasında doğuş vaxtı qanaxma ehtimalı çoxdur?

A) Ciftdə əlavə paycığın olması
B) Ciftin həqiqi bitişməsi
C) Göbək ciyəsinin uzun olması

D) Ciftin infarktı
E) Ciftin kiçik olması

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 237-285

92) Göbək ciyəsinin hansı anomaliyasında döl üçün təhlükə daha çox ola bilər?

A) Göbək ciyəsinin kənari bitişməsi
B) Göbək ciyəsinin başa dolanması
C) Göbək ciyəsinin həqiqi düyünü
D) Göbək ciyəsinin mərkəzi bitişməsi
E) Göbək ciyəsinin yalançı düyünü

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 286

93) Cift öz inkişafını hamiləliyin hansı müddətinə kimi davam etdirir?

A) 22 həftə
B) 8 həftə
C) 20 həftə
D) 12 həftə
E) 16 həftə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 61

94) Dölyanı mayenin tərkibi nədən ibarətdir?

A) Amnion qişanın epitelinin, ananın qan damarlarının, dölün böyrəyinin ifrazatı
B) Amnion, xorion qişanın epitelinin ifrazatı, dölün sidik sistemi fəaliyyəti
C) Amnion qışanın epitelinin ifrazatı, yağlar, maddələr mübadiləsinin məhsulları
D) Ammon, xorion qişanın epitelinin ifrazatı, maddələr mübadiləsi məhsulları
E) Ananın damarlarının, epidermisin, dölün böyrəyinin ifrazatı

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 41

95) Doğuş zamanı döl yanı mayenin əsas rolu nədən ibarətdir?

A) Aralığın tamlığını təmin edir
B) Dölün inkişafını təmin edir
C) Göbək ciyəsinin dölə dolanmasının qarşısını alır
D) Açılma dövrünün normal keçməsini təmin edir
E) Dölü xarici təsirlərdən qoruyur

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 41

96) Qadın cinsiyyət hormonu hansıdır?

A) Testesteron
B) Oksitosin
C) Pituitrin
D) Follikulin
E) Androgen

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 35

97) Rezus uyğunsuzluq nə vaxt baş verir?

A) Qohumluq ehtimalı olduqda
B) Ananın qanı müsbət, atanın qanı mənfi olanda
C) Ananın qanı mənfi , atanın qanı müsbət olanda
D) Atanın və ananın qanı mənfi olanda
E) Atanın və ananın qanı müsbət olanda

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 302

98) Uşaqlıq boynunun çatmamazlığı ilə bağlı düşüklər ən çox neçənci həftədə baş verir?

A) 11 – 12 həftə
B) 3 – 4 həftə
C) 6 – 7 həftə
D) 16 – 18 həftə
E) 13 – 14 həftə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 168

99) Progesteron çatmamazlığı ilə baş verən hamiləlikdə düşük təhlükəsi olduqda hansı dərman təyin olunur?

A) Sinestrol
B) Dyufaston
C) Profaz
D) Sefanorm
E) Follikulin

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 168

100) Güclü doğum fəaliyyətində nə olmur?

A) Ana və döl üçün travma
B) Hipotonik qanaxma
C) Uzunmüddətli susuz dövr
D) Dölün hipoksiyası
E) Uşaqlığın pis yığılması

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 207

101) Nəm oksigen hansı məqsədlə işlənə bilər?

A) Döl qişası açıldıqdan sonra
B) Uşaqlıq boynunun 6 sm açılmasından sonra
C) Erkən zahılıq dövrünün qanaxmasının profilaktikasında
D) Dölün hipoksiyasının profilaktikası üçün
E) Doğuşu stimulə etmək üçün

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 354

102) Hansı hamilə qadınların doğuşunu təbii doğum yolu ilə başa çatdırmaq olar?

A) Preeklampsiyanın ağır dərəcəsində
B) Vaxtı ötmüş hamiləlikdə döl yanı maye axmayıbsa
C) Normal yerləşmiş ciftin vaxtından qabaq tam ayrılmasında
D) Uşaqlıq üzərində çapıq toxuma olduqda
E) Mərkəzi cift gəlişində

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 180

103) Hamilələrdə sidik ifrazının ağrılı olması nəyi göstərir?

A) Sistiti
B) Nefriti
C) Sistoqrafiyaya göstərişi
D) İnkişafdan qalmış hamiləliyi
E) Anemiyanı

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 157

104) Uşaqlıq boynunun açıqlıq dərəcəsi necə təyin olunur?

A) Hamiləliyin müddətinə görə
B) Gələcək hissənin çanağa münasibətinə görə
C) Uşaqlıq yolu müayinəsi ilə
D) Sancıların xarakterinə görə
E) Dölün vəziyyətinə görə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 73-76

105) Deskvamasiya fazasından sonra hansı faza gəlir?

A) Selik ifrazı fazası
B) Degenerasiya fazası
C) Regenerasiya fazası
D) Desidual qişa
E) Proliferasiya fazası

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 35

106) Normal çanağın həqiqi konyuqatası neçə sm - dir?

A) 9
B) 12, 5
C) 11
D) 13
E) 12

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26

107) Yarımçıq və normal yeni doğulmuşlar arasındakı sərhəd neçə qramdır?

A) 1500 qr
B) 1000 qr
C) 2500 qr
D) 2300 qr
E) 2800 qr

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 177

108) Hamiləliyi təyin etmək üçün sidikdə əsasən nə yoxlanılır?

A) Şəkər

B) Zülal
C) Aseton
D) Xorionik qonadotropin
E) Leykosit

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 67

109) Hamiləlik vaxtı dəridə çapıqların əmələ gəlməsi nəyin hesabına olur?

A) Hamiləliyin əsas əlamətidir
B) Təkcə çox doğan qadınlarda olur
C) Hamiləlikdən sonra itir
D) Ağ xəttin tünd olması
E) Dərinin elastikliyinin zəif olması

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 61

110) Hamiləlik təqviminə görə qadın bütün hamiləliyi müddətində neçə dəfə oftalmoloq və terapevtin müayinəsində olmalıdır?

A) İlk dəfə gələndə
B) 3 dəfə
C) Hər ay
D) 2 dəfə
E) Hər həftə

Ədəbiyyat: Hamiləliyin təqvimi.F.Əliyeva -Bakı-2004 səh 12

111) Zahılıq palatalarının cari və əsaslı təmizləmə işləri neçə dəfə aparılmalıdır?

A) Gündə 2 dəfə
B) Gündə 1 dəfə dezinfeksija edici məhlulla
C) Gündə 1 dəfə adi su ilə
D) Gündə 3 dəfə, həftədə 1dəfə
E) Gündə 1 dəfə, həftədə 2dəfə

Ədəbiyyat: Zahılıq palatalarının təmizləmə işləri cari - gündə 3 dəfə , əsaslı-həftədə 1dəfə aparılmalıdır 124 saylı əmrə əsasən

112) Təcili yardım maşınında doğan qadın hansı şöbəyə qəbul olunmalıdır?

A) Patoloji şöbəyə
B) İkinci mamalıq şöbəsinə

C) Fizioloji doğuş şöbəsinə
D) Doğuşdan qabaqkı şöbəyə
E) Fizioloji zahılar şöbəsinə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007səh

113) Kəskin qan itirmədə nə edilmir?

A) Oksigen
B) Ənsə nahiyyəsinə ilıq istiqac
C) Çarpayının baş hissəsi yuxarı qaldırılır
D) İsti çay, kofe
E) Qan köçürmə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 253

114) Doğuşdan sonra "ördək yerişi" nə vaxt baş verir?

A) Qasıq sümüklərinin aralanması
B) Aralığın cırılması
C) Svişlər
D) Uşaqlığın çevrilməsi
E) Endometrit

Ədəbiyyat: В.И. Бодяжина. Акушерство. «Медицина», Москва, 1985 səh. 290

115) Aralığın I dərəcəli cırılmasında nə zədələnir?

A) Dərinin tamlığı pozulur
B) Uşaqlıq yolu cırılır
C) Tağlar zədələnir
D) Düz bağırsağın sfinktoru zədələnir
E) Svişlər əmələ gəlir

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 242

116) Abort vaxtı hansı narkozdan istifadə edilir?

A) Efir
B) Vena daxili
C) Pudendal
D) Epidural
E) İnqalyasion

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 308

117) Uşaqlıq yolunun I təmizlik dərəcəsində nə olur?

A) Qələvi mühit
B) Çoxlu Doderleyn çöpləri
C) Selik və bakteriyalar
D) Leykositlər çox
E) Doderleyn çöpləri olmur

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

118) Uşaqlıq yolu necə adlanır?

A) Vaqina
B) Uretra
C) Vulva
D) Uterus
E) Salpinqess

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

119) Uşaqlıq-uşaqlıq arteriyasından başqa hansı arteriya ilə də qanla təchiz olunur?

A) Yumurtalıq
B) Düz bağırsaq
C) Qarın aortası
D) Qasıq arteriyası
E) Böyrək

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

120) Aybaşı vaxtı hansı qat qopub düşür?

A) Bütün selikli qat
B) Selikli qişanın funksional qatı
C) Seroz qat
D) Selikli qişanın bütün qatı
E) Selikli qişanın bazal qatı

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 35

121) Simfizin aşağı kənarından oma qabarına kimi olan məsafə necə adlanır?

A) Anatomik konyuqata
B) Diaqonal konyuqata
C) Xarici konyuqata
D) Mamalıq konyuqatası
E) Həqiqi konyuqata

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26

122) Simfizin yuxarı kənarı ilə Mixayles rombunun yuxarı küncünə qədər olan məsafə necə adlanır?

A) Xarici konyuqata
B) Solovyov əlaməti
C) Həqiqi konyuqata
D) Distansiya spinarum
E) Anatomik konyuqata

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26

123) Normada mayalanma harada baş verir?

A) Uşaqlıqda
B) Yumurtalıqda
C) Uşaqlıq boynunda
D) Borunun ampulyar hissəsində
E) Qarın boşluğunda

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 41

124) Kiçik çanaq boşluğunun enli hissəsinin köndələn ölçüsü neçə sm - dir?

A) 13 sm
B) 10, 5 sm
C) 11 sm
D) 9, 5 sm
E) 12, 5 sm

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 28

125) Qadın xarici cinsiyyət üzvlərinə aiddir?

A) Yumurtalıq
B) Böyük və kiçik cinsiyyət dodaqları
C) Uşaqlıq boruları
D) Cift
E) Uşaqlığın boynu

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

126) Yumurtalığın rolu nədən ibarətdir?

A) Hormon ifraz edir
B) İçərisi maye ilə dolu olur
C) Şirə ifraz edir
D) Uşaqlığın yan tərəfində yerləşir
E) Cinsi yetişkənliyi təmin edir

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

127) Hansı nahiyə aralıq adlanır?

A) Kiçik çanağın aşağı dəliyinin yumşaq törəmələri
B) Kiçik çanağın yuxarı dəliyi
C) Böyük çanağın aşağı hüdudu
D) Anal dəliklə uşaqlıq yolu arası
E) Çanaq əzələləri

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

128) Hipofizin arxa payının hormonu hansıdır?

A) Oksitosin
B) Progesteron
C) Testosteron
D) Estradiol
E) Follikulin

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

129) Aşağıdakılardan hansı böyük çanağa aiddir?

A) Həqiqi konyuqata

B) Çəp ölçü
C) Daraqlar arası məsafə
D) Anatomik konyuqata
E) Köndələn ölçü

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26

130) Uşaqlıq harada yerləşir?

A) Qarın boşluğunun aşağı hissəsində
B) Kiçik çanağın mərkəzində
C) Periton arası sahədə
D) Qismən böyük çanaqda və əsasən kiçik çanaqda
E) Böyük çanağın mərkəzində

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

131) Uşaqlıq topoqrafik cəhətdən harada yerləşir?

A) Çanaq dibi əzələlərinin üzərində
B) Düz bağırsaqla sidik kisəsinin arasında
C) Sidikliyin önündə
D) Düz bağırsağın arxasında
E) Sidikliyin üstündə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

132) Hansı məhlul izotonik sayılır?

A) 5 % - li qlükoza
B) 0,9 % NaCl
C) 40 % qlükoza
D) Hemodez
E) 17 % NaCl

Ədəbiyyat: В.И. Бодяжина. Акушерство. «Медицина», Москва, 1985 səh 147

133) Hemolitik xəstəliyin səbəbi nədir?

A) Toksinlər
B) Qusma
C) Hamiləlik toksikozları
D) İnfeksion xəstəliklər

E) Ananın və dölün rezus uyğunsuzluğu

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 280-302

134) Cinsiyyət üzvlərinin hansında boylama büküşlər var?

A) Uşaqlığın boynunda
B) Uşaqlıq yolunun daxili səthində
C) Uşaqlığın selikli qişasında
D) Uşaqlığın dibində
E) Uşaqlığın səthində

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

135) Uşaqlıq yolu harada yerləşir?

A) Sidik kanalının yuxarı səthində
B) Uşaqlıqla sidik kisəsi arasında
C) Uşaqlığın önündə
D) Düz bağırsaqla sidik kanalı arasında
E) Düz bağırsağın arxasında

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

136) Aşağıdakılardan hansı qadın cinsiyyət hormonlarına aiddir?

A) İnsulin
B) Xorionik - qonadotropin
C) Androgen
D) Estrogen
E) Testosteron

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 35

137) Böyük əmgək hansı sümüklərin arasında yerləşir?

A) Təpə və alın
B) Təpə və ənsə
C) Təpə və gicgah
D) Ənsı və alın
E) Alın və əsas

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 59

138) Hamiləlik zamanı həqiqi konyuqata nəyə əsasən təyin olunur?

A) Anatomik konyuqataya görə
B) Köndələn ölçüyə görə
C) Düz ölçüyə görə
D) Diaqonal konyuqataya görə
E) Xarici konyuqataya görə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26

139) Uşaqlıq borusunun uzunluğu neçə sm olur?

A) 5 - 10 sm
B) 5 - 8 sm
C) 7 - 12 sm
D) 10 - 12 sm
E) 20 - 25 sm

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 35

140) Normada uşaqlığın vəziyyəti necədir?

A) Arxaya əyilmiş - bükülmüş
B) Orta xətt ətrafında fırlanmış
C) Sağa əyilmiş
D) Önə əyilmiş - bükülmüş
E) Sola əyilmiş

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26

141) Uşaqlıq boynunun xarici dəliyi hara baxır?

A) Anal dəlikdən arxaya
B) Uşaqlıq yolu girəcəyinə
C) Uşaqlıq yolunun orta hissəsinə
D) Uşaqlıq yolunun yuxarı 1/3 hissəsinə
E) Uşaqlıq yolunun aşağı 1/3 hissəsinə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26;

142) Kişi cinsiyyət hormonu hansıdır?

A) İnsulin
B) Testosteron
C) Progesteron
D) Oksitosin
E) Follikulin

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26

143) Diaqonal konyuqata necə təyin olunur?

A) Çanaqölçən və xarici müayinə ilə
B) Santimetr lenti ilə
C) Daxili müayinə ilə
D) Xarici müayinə ilə
E) Çanaq ölçən ilə

Ədəbiyyat: 26H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76

144) Hipofizin ön payının hormonuna hansı aid deyil?

A) Tireotrop
B) Prolaktin
C) Follikul stimuləedici
D) Somatotrop
E) Estradiol

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 35;

145) Aşağıdakılardan hansı kiçik çanaq toxumasına aid deyil?

A) Uşaqlıq yolu ətrafı
B) Oma-uşaqlıq bağı
C) Düz bağırsaq ətrafı
D) Sidiklik ətrafı
E) Uşaqlıq ətrafı

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29;

146) Uşaqlıq siklinə nə aid deyil?

A) Regenerasiya
B) Sarı cismin inkişafı
C) Sekresiya fazası
D) Deskvamasiya fazası
E) Proliferasiya

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76

147) Çanaq sümüyünə hansı bitişmə aid deyil?

A) Sol oma - qalça bitişməsi
B) Sağ oma - qalça bitişməsi
C) Oma-büzdüm bitişməsi
D) Çanaq - bud bitişməsi
E) Qasıq bitişməsi

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 29

148) Çanağın keçirici oxu haradan keçir?

A) Diaqonal konyuqatanın ortasından
B) Kiçik çanağın çəp ölçülərinin ortasından
C) Böyuk çanağın köndələn ölçülərinin ortasından
D) Kiçik çanağın düz ölçülərinin ortasından
E) Böyük çanağın ölçülərinin ortasından

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26;

149) Aşağıdakılardan hansı kişi çanağına aiddir?

A) Oma enli, promentorium önə baxır
B) Çanaq enli və gödəkdir
C) Kiçik çanaq boşluğu enlidir
D) Oturaq qabarları arası məsafə enlidir
E) Çanaq dar və hündürdür

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26;

150) Ciftin çəkisi necə qram olur?

A) 100 – 200 qr
B) 700 qr
C) 500 – 600 qr
D) 1000 qr
E) 300 – 400 qr

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 41-100

151) Dölün uzunluğunu təyin etmək üçün hansı sxemden istifadə edilir?

A) Alfeld üsulundan
B) Sovyanov üsulundan

C) Brekton – Hiks üsulundan
D) Nikolayev üçlüyündən
E) Qaaze sxemindən

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 57;

152) Aşağıdakılardan hansı kəlləyə aid deyil?

A) Gicgah
B) Alın
C) Liambdaya bənzər tikiş
D) Üz
E) Oxabənzər tikiş

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq. Bakı-2007. səh 51

153) Açılma dövrünü idarə edərkən mama nə etməməlidir?

A) Maşa qoymaq
B) Xarici mamalıq müayinəsi
C) Arterial təzyiqi ölçmək
D) Dölün ürək döyünməsinə qulaq asmaq
E) Daxili müayinə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76

154) Apqar şkalası dedikdə nə nəzərdə tutulmur?

A) Pendirvari maddə
B) Dərinin rəngi
C) Ürək döyünməsi
D) Əzələ tonusu
E) Tənəffüs

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 355

155) Sağrı gəlişlərində doğuş şişi hara düşür?

A) Sağ ayağa
B) Arxa sağrıya
C) Sol ayağa
D) Kürəyə
E) Ön sağrıya

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 217

156) Dölün anomaliyalarına nə aid deyil?

A) Qasıq yırtığı
B) Mikrosefaliya
C) Ölü döl
D) Bitişik əkizlər
E) Qurd ağız, dovşan dodaq

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 280-294;

157) Ciftin vaxtından qabaq tam ayrılmasında nə olmur?

A) Dölün ürək döyünməsi eşidilmir
B) Nəbz tezləşir, arterial təzyiq aşağı düşür
C) Qarında güclü ağrı
D) Uşaqlıq daxili təzyiq
E) Qusma

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 234

158) Prostoqlandinlər miometriumun yığılma qabiliyyətinə necə təsir edir?

A) Azaldır
B) Təsir etmir
C) Cüzi azaldır
D) Əvvəl artırır, sonra azaldır
E) Artırır

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 89

159) Göbək ciyəsinin ana ucunun təqribən 10 sm-ə dək uzanması əlaməti hansı üsulla təyin edilir?

A) Krede - Lazarevic
B) Piskaçek
C) Kustner - Cukalov
D) Alfeld
E) Şreder

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 100

160) Hamilənin qidasında hansı maddələr üstünlük təşkil etməlidir?
1. Zülallar
2. Vitaminlər

3. Karbohidratlar
4. Yağlar
5. Xörək duzu

A) 2, 5
B) 1, 2
C) 1, 4
D) 3, 5
E) 3, 4

Ədəbiyyat: Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh70;

161) Uşaqlığın daxili səthi doğuşdan neçə gün sonra bərpa olunur?

A) 5
B) 3
C) 2
D) 10
E) 1

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 120; В.И

162) Uşaqlığın daxili səthi (cift bitişən yerlə birgə) doğuşdan neçə gün sonratam bərpa olunur?

A) 3
B) 7
C) 5
D) 10
E) 20

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 120;

163) Tək yumurta əkizlərində hansı əlamət eyni olur?
1. Ümumi xovlu və kapsulyar qişa
2. Müxtəlif qan qrupu
3. Eynicinsli olma
4. Dərinin rəngi
5. Çəki

A) 2, 3
B) 4, 5
C) 2, 5
D) 1, 5
E) 1,3

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26;

164) Çanaq gəlişlərində hamilələr nə vaxt stasionara göndərilməlidir?

A) Dölyanı maye axdıqda
B) Doğum fəaliyyəti başladıqda
C) Doğuşa 2 həftə qalmış
D) Döğuşa 3 gün qalmış
E) Döğuş sancıları tezləşdikdə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007səh217;

165) Feldşer - mama məntəqəsinə (FMM) 30 yaşlı 37 - 38 həftəlik hamilə qadın müraciət etmişdir. Xarici müayinə zamanı çəkisi təqribən 4000 qr olan ,ayaq gəlişli döl müəyyən edilmişdir. Döğuşun normal başa çatdırılması (diri döl vermək şərtilə) üçün mamanın taktikası nədən ibarət olmalıdır?

A) Keysəriyyə kəsiyinin aparılması üçün təcili stasionara göndərməlidir
B) Dölyanı mayeni süni yolla açmalıdır
C) Doğuşu stimulə etməlidir
D) Perineotomiya etməlidir
E) Sovyanov üsulu ilə doğuşu qəbul etməlidir

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 343;

166) Anemiyası olan hamilələrə təyin edilən preparatların tərkibində hansı kimyəvi element üstünlük təşkil edir?

A) Natrium (Na)
B) Vitamin D
C) Kalsium (Ca)
D) Vitamin A
E) Dəmir (Fe)

Ədəbiyyat: Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.

167) Feldşer mama məntəqəsinə 27 yaşlı qadın 30-32 həftəlik hamiləliklə uşaqlıq yolundan qanaxma şikayəti ilə müraciət etmişdir.Ağrı yoxdur.Mama hansı patologiyadan şübhələnməlidir?

A) Başlanğıc abort
B) Natamam abort
C) Tam abort
D) Ciftin vaxtından qabaq ayrılması
E) Mərkəzi cift gəlişi

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007səh 2322

168) Əgər hamilə qadın məsləhəhətxanasına həkimin qəbuluna gəlməyibsə, mama nə vaxt patronaja getməlidir?
1. Həmin gün
2. 1 həftə ərzində
3. 1 ay ərzində
4. Səhəri gün
5. 10 gündən sonra

A) 4, 3
B) 2, 3
C) 1, 4
D) 4, 5
E) 2, 5

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 20

169) Həkim olmayan şəraitdə, zərurət yarandıqda mama hansı əməliyyatı icra edə bilər?

A) Mamalıq maşalarını qoymaq
B) Süni abortu
C) Uşaqlığın amputasiyasını
D) Keysəriyyə əməliyyatı aparmaq
E) Sovyanov üsulu ilə doğuşun qəbulunu

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 217;

170) Hamilələr vitamin preparatlarını necə qəbul etməlidirlər?

A) Baş tibb bacısının təyinatı ilə
B) Mamanın təyinatı ilə
C) Tibb bacısının təyinatı ilə
D) Həkimin təyinatı ilə
E) Sərbəst

Ədəbiyyat: Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 70;

171) Hansı qadınlarda cinsiyyət üzvlərinin iltihabı xəstəliklərinin yaranma riski yüksəkdir?

A) Təkrar doğan qadınlarda
B) Doğmamış qadınlar

C) Çoxlu sayda abort etmiş
D) Hamilə qadınlar
E) Yeniyetmələr

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 261;

172) Uşaqlığın əsas funksiyası hansıdır?

A) Sekretor
B) Aybaşı
C) Endokrin
D) Müdafiə
E) İfrazat

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 35;

173) Yumurtalığın funksiyası hansıdır?

A) Ekzokrin
B) Endokrin-hormonal
C) Müdafiə
D) Aybaşı
E) İfrazat

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 35;

174) Hamiləliyin kiçik müddətinin təyinində aparılan daxili müayinə üsuluna nə aid deyil?.

A) İmmunoloji müayinə
B) Uşaqlığın böyüklüyü
C) Piskaçek əlaməti
D) Heqar simptomu
E) Sneqiryov əlaməti

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007səh67

175) Aşağıdakılardan hansı qadın cinsiyyət üzvlərinə aid deyil ?

A) Prostat vəzi
B) Yumurtalıqlar
C) Böyük və kiçik cinsiyyət dodaqları
D) Uşaqlıq yolu
E) Uşaqlıq

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 26

176) Mamalıqda əhəmiyyət daşıyan əmgəklərin sayı neçədir?

A) 3
B) 1
C) 2
D) 4
E) 7

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 59;

177) Başın açılmış gəlişlərinə aid deyil?
1. Alın gəlişi
2. Üz gəlişi
3. Ənsə gəlişi ön görkəm
4. Ön təpə gəlişi
5. Ənsə gəlişi arxa görkəm

A) 1, 2
B) 3, 5
C) 2, 4
D) 3, 4
E) 1, 5

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76

178) Ön təpə gəlişində bələdçi (aparıcı) nöqtə hansıdır?

A) Burnun kökü
B) Kiçik əmgək
C) Alın sümüyü
D) Böyük əmgək
E) Dilaltı sümük

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 228;

179) Yetişmiş dölün başının düz ölçüsü neçə sm - dir?

A) 9, 5 sm
B) 14 sm
C) 10 sm
D) 13 sm
E) 12 sm

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 59;

180) Ön təpə gəlişində baş hansı ölçü ilə xaric olur?

A) Orta çəp ölçü Baş 12 sm ilə xaric olur. Ənsə qabarından burun kökünə qədər olan məsafədir
B) Şaquli ölçü
C) Düz ölçü
D) Böyük çəp ölçü
E) Kiçik çəp ölçü

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 228;

181) Süd vəzisinin böyüməsində hansı hormon rol oynayır?

A) Kortizol
B) Testosteron
C) Prostoqlandin
D) Prolaktin
E) İnsulin

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 61

182) Doğuş vaxtı ciftin bitişməsinə şübhə olduqda mamanın taktikasi?

A) Uşaqlığı xaricdən massaj etməli
B) Cifti əl ilə ayırmalı
C) Qarnın aşağısına soyuq qoymalı
D) Abuladze üsülunu tətbiq etməli
E) Təcili həkimə müraciət etməli

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 237-280;

183) Zahılıq dövrünün gedişində mama nəyə xüsüsi diqqət verməlidir?

A) Kariyesin profilaktikasına
B) Qadının dərisinə
C) Qadının yuxusuna
D) Zahının psixoloji vəziyyətinə
E) Mastitin profilaktikasına

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 120;

184) Uşaqlıq borusunun tamlıgı pozulduqda axan qan haraya toplanır?

A) Qızlıq pərdəsinin arxasına
B) Uşaqlıq yoluna
C) Uşaqlığa
D) Duqlas boşluguna
E) Uşaqlıq yolunun ön tağına

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 186;

185) Yumurta hüceyrə harada böyüyüb inkişaf edir?

A) Alveolda
B) Follikulda
C) Leykositdə
D) Limfositdə
E) Eritrositdə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 35;

186) Ciftin hissəvi bitişməsinə şübhə olduqda mama hansı əməliyyatı yerinə yetirməyi bacarmalıdır?

A) Oksitosinin venadaxili infuziyası
B) Abuladze üsülu
C) Qarnın aşağısına soyuq qoyulması
D) Uşaqlığın xaricdən massajı
E) Ciftin əl ilə ayrılması

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 232

187) Feldşer-mama məntəqəsində (FMM) işləyən mama hansı hallarda uşaqlığın cırılma təhlükəsindən şübhələnə bilər?

A) Dölyanı mayenin çoxluğunda
B) Cift gəlişi olduqda
C) Çoxdöllülükdə
D) Preeklampsiyada
E) Uşaqlıq üzərində köhnə çapıq toxuması olduqda

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 343

188) Aralığın birinci dərəcəli cırığı zamanı tikiş hara qoyulmalıdır?

A) Aralığın əzələsinə
B) Uşaqlıq yolunun selikli qişasına
C) Anusun xarici sfinktoruna
D) Uşaqlıq yolunun əzələ qişasına
E) Aralığın dərisinə

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 242;

189) Çanaq peritonunun iltihabı necə adlanır?

A) Parametrit
B) Pelvioperitonit
C) Paraproktit
D) Perimetrit
E) Salpingit

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 261;

190) Uşaqlıq ətrafı toxumanın iltihabına nə deyilir?

A) Vaginit
B) Parametrit
C) Endoservisit
D) Peritonit
E) Paraproktit

Ədəbiyyat: H.F.Bağırova. Mamalıq.Bakı-2007 səh 76, 261;

191) Aşağıdakılardan hansınının daxilə qəbulu bütün hamilələrə məsləhət görülür?

A) Fol turşusu
B) Metasin
C) Qlükokortikoidlər
D) Diuretiklər
E) Antibiotiklər

Ədəbiyyat: Z.M.Topçubaşova. Mamalıq və perinatologiyanın əsasları.Bakı-2009 səh 70;

192) Partoqramma nədir?

A) Yenidoğulmuşun tənəffüs hərəkətini əks etdirən qrafik yazıdır
B) Yenidoğulmuşun ürək ritminin tezliyini əks etdirən qrafik yazıdır
C) Doğuş prosesinin bütün dövrlərini əks etdirən qrafik yazıdır
D) Doğuş prosesinin yalnız qovulma dövrünü əks etdirən qrafik yazıdır
E) Doğuş prosesinin yalnız açılma dövrünü əks etdirən qrafik yazıdır

Ədəbiyyat: “ Ana və uşaq sağlamlığı siyasəti” (metodik təlimat) Əmr № 124-03.12.2007. səh. 21-22

193) Mama doğuşun birinci dövrünü idarə edərkən doğan qadına hansı vəziyyətdə sancı çəkməyi məsləhət görməlidir?

A) Arxası üstə uzanmağı
B) Oturaq vəziyyətə üstünlük
C) Vəziyyətin azad seçim hüququ
D) Ayaq üstə
E) Sağ tərəfi üstə uzanmağı

Ədəbiyyat: “Ana və uşaq sağlamlığı siyasəti” (metodik təlimat). Əmr № 124-03.12.2007. səh 19-20

194) Doğuşun 1-ci dövründə arxası üstə uzanmağa üstünlük verən qadına mama hansı tərəfə çevrilməyi təklif etməlidir?

A) Ayaq üstə
B) Yarı oturaq
C) Qadının vəziyyətindən asılı deyil
D) Sol tərəfi üstə
E) Sağ tərəfi üstə

Ədəbiyyat: “Ana və uşaq sağlamlığı siyasəti” (metodik təlimat). Əmr № 124-03.12.2007. səh 20

195) Aşağıdakılardan hansı aşağı boş venanın sıxılmasının (sindrom) əlamətlərinə aid deyil?

A) Oksigen çatışmazlığı
B) Dölün ürək döyüntülərinin kəskin azalması
C) A / T enməsi(arterial təzyiqin enməsi)
D) Qusma
E) Baş gicəllənmə

Ədəbiyyat: “Ana və uşaq sağlamlığı siyasəti (metodik təlimat). Əmr № 124-03.12.2007. səh 20

196) Partnyorlu doğuşların üstünlüyü nədən ibarətdir?

A) Etik cəhətdən düzgün deyil
B) Qadının emosional statusunu pisləşdirir
C) Heç bir əhəmiyyəti yoxdur
D) Doğuş zamanı fiziki və psixoemosional yardımı təmin edir
E) Doğuş prosesinə mane olur

Ədəbiyyat: “Ana və uşaq sağlamlığı siyasəti” (metodik təlimat). Əmr № 124-03.12.2007. səh 26

197) Yenidoğulmuşun erkən əmizdirilməsinin ana üçün üstün cəhətləri hansılardır?
1. Uşaqlığın fizioloji yığılması baş verir
2. Heç bir əhəmiyyəti yoxdur
3. Qanda oksitosinin miqdarı artır
4. Estrogenlərin miqdarıdəyişmir
5. Progesteronun miqdarı azalır

A) 2, 5
B) 2, 4
C) 1, 4
D) 3, 5
E) 1,3

Ədəbiyyat: "Ana və uşaq sağlamlığı siyasəti" (metodik təlimat). Əmr № 124 - 03.12.2007.səh 27

198) Cift xaric olduqdan sonra uşaqlığın yığılması üçün nə etmək lazımdır?

A) Qarnın üzərinə ağırlıq qoymaq
B) Dəri altına oksitosinin yeridilməsi
C) Qarnın üzərinə buz qoymaq
D) Uşaqlığın yuxarı hissəsindən yüngül masaj etməli
E) Venadaxili qlükoza yeritmək

Ədəbiyyat: "Ana və uşaq sağlamlığı siyasəti" (metodik təlimat). Əmr № 124 - 03.12.2007.səh 27

199) Bunlardan hansı daha rasional hesab edilir?

A) 3 - 4 saatdan bir əmizdirmə
B) 5-6 saatdan bir əmizdirmə
C) Gecə 8 saat intervalla 3 - 4 saatdan bir əmizdirmə
D) Gecə 6 saat intervalla 4 - 5 saatdan bir əmizdirmə
E) Yenidoğulmuşun sərbəst əmizdirilməsi

Ədəbiyyat: "Ana və uşaq sağlamlığı siyasəti" (metodik təlimat).Əmr № 124-03.12.2007. səh 50

200) Yenidogulmuşun döşlə ilk qidalanmasını nə vaxt başlamaq olar ?

A) Doğuşdan təxminən 30 - 60 dəqiqə sonra

B) 1 sutka sonra
C) 3 - 4 saat sonra
D) 6 saatdan sonra
E) 2 sutka sonra

Ədəbiyyat: “Ana və uşaq sağlamlığı siyasəti” (metodik təlimat). Əmr № 124-03.12.2007. səh 40